BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2012*

**UOT 94 (479.24)**

# SƏFƏVİLƏRİN TƏSƏRRÜFAT HƏYATINDA ŞƏHƏRLƏRİN ROLU SƏYYAH GÜNDƏLİKLƏRİNDƏ

**N.M.SÜLEYMANOV**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***nizamisüleymanov@mail.ru***

*XVI—XVII yüzilliklərdə şəhərlər ölkə daxilində ticarət əlaqələrinin qurulması və inkişafında mühüm rol oynayırdı. Səfəvi dövlətinin tarixinin görkəmli araşdırıcılarından olan O.Əfəndiyev Azərbaycan şəhərlərini iqtisadi əhəmiyyətlilik baxımından qruplaşdırarkən Təbriz, Gəncə, Ərəş, Ərdəbil və Culfa şəhərlərini ümumdövlət miqyaslı, Bərdə, Naxçıvan, Marağa, Dərbənd şəhərlərini isə yerli-vilayət miqyaslı şəhərlər sırasına daxil etmişdir. Onun mülahizələrinə görə, inzibati və siyasi mərkəz olmayan bir çox sənətkarlıq-ticarət məskənləri də var idi ki, bunlar da ölkənin iqtisadi həyatında yuxarıda adı sadalanan şəhərlərdən az rol oynamırdı. Məqalə də məhz bu məsələləri əhatə edir.*

**Açar sözlər:** Təbriz, Culfa, Dərbənd, Xəzər, Səfəvi, Osmanlı

XVI-XVII yüzilliklərə aid mənbələrdə və səyyah gündəliklərində Azərbaycanın daxili ticarətində və ölkədaxili iqtisadi əlaqələrdə mühüm rol oynayan şəhərlər haqqında çox qiymətli məlumat vardır. Səyyah gündəliklərində Azərbaycana dünyanın hər tərəfindən tacirlərin axışıb gəldiyi qeyd edilir. Təbii ki, güclü sənətkarlığı və zəngin daxili bazarı olmayan heç bir şəhər xarici tacirləri belə cəlb edə bilməzdi. XV əsrin sonu üçün əvvəlki ticarət əhəmiyyətini itirən Dərbənd şəhərinin yenidən dirçəlməsi haqqında holland Yan Streysin gündəliyində qiymətli faktlar verilmişdir [2, 231, 232]. Bunlar göstərir ki, Dərbənd şəhəri, xüsusilə XVII əsrdə Səfəvilərin Xəzər dənizinin qərb sahillərində əsas iqtisadi-ticarət mərkəzlərindən biri idi. Qeyd etmək lazımdır ki, Xəzər dənizi əsas su hövzəsi olmaqla, ölkənin daxili ticarətinin inkişafında və xarici iqtisadi əlaqələrinin genişlənməsində böyük rol oynayırdı. Dənizin sahilində yerləşən şimal şəhəri Dərbəndin XV-XVI əsrlərdən fərqli olaraq XVII yüzillikdə ölkənin daxili ticarətində əhəmiyyətinin artması, digər iqtisadi mərkəzlərlə sıx əlaqələr saxlaması Y.Streysin verdiyi məlumatlarda [3] təsdiqini tapır.

Yan Streys Dərbənd şəhərinin ölkənin iqtisadi həyatında rolunu düzgün qiymətləndirmiş, cənubda — Hindistan sərhədində Hambrun olduğu kimi,

onun şimalda xüsusi əhəmiyyət kəsb etdiyini, ölkənin qapısı və açarı olduğunu bildirmişdir. Hollandiyalı qeydlərinin başqa bir yerində şəhərdə kölə alverinin getdiyini və ancaq əvvəl yazdığının əksinə olaraq üstünlük təşkil etmədiyini göstərmişdir. Streys Niyazabad-Şabran-Beşbarmaq yolu ilə Dərbənddən Şamaxıya altı günlük yol olduğunu yazır. Yan Streysin gündəliyindən aydın olur ki, Dərbənddən təkcə Şamaxıya deyil, İsfahana da mal göndərilirdi [2, 236, 243-245].

Osmanlı-Səfəvi savaşlarına baxmayaraq, Şamaxı şəhəri əvvəllərdə olduğu kimi, qonşu şəhərlərlə və dövlətlərlə qızğın ticarət əlaqəsində idi. XVI əsrin sonu – XVII yüzillikdə təsərrüfatın bərpası və məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar Azərbaycanda ticarət, əmtəə-pul münasibətləri genişlənmişdi. Bu zaman Şamaxı şəhəri Şirvanda əsas iqtisadi mərkəzlərdən birinə çevrilmişdi. 1579-cu ildə burada olmuş ingilis taciri Xristofor Berrou Şamaxını ölkənin canlı ticarət şəhəri kimi təsvir etmişdir [3, 169]. XVII yüzilliyin əvvəllərində rus taciri F.Kotovun şəhərin bazarı, karvansara və dükanları haqqında verdiyi məlumatlar da onun ölkədaxili iqtisadi əlaqələrdə rolunun artdığını göstərir. O qeyd edirdi ki, Şamaxıda daşdan tikilmiş 7 karvansara vardır ki, onların hamısına ətraf dağlardan yeraltı daş borularla su çəkilmişdir. Buradakı Ləzgi, Gilan, Buxara karvansaralarından danışan tacir şəhər bazarlarında cürbəcür malların, rəngli ipək və xam ipəyin bol olduğunu göstərir. F.Kotova görə, xam ipək şəhər bazarına ətraf kəndlərdən gətirilib satılırdı. Tacir qızğın alver gedən Şamaxı bazarına bir çox əcnəbi ölkələrdən, o cümlədən Türkiyədən də mal gətirildiyini qeyd etmişdir [4, 72].

Şamaxının ölkədaxili ticarət əlaqələrində xüsusi əhəmiyyətə malik olması şəhərin həm daxili, həm də beynəlxalq karvan yolları üzərində yerləşməsi ilə sıx bağlı idi. Şamaxı-Dərbənd, Şamaxı-Hambrun (İran körfəzi) daxili karvan yolları və şəhərin ölkədaxili iqtisadi əlaqələrdə əhəmiyyətli mövqeyi haqqında Yan Streysin gündəliyində də tutarlı qeydlər vardır. Onun yazdığına görə, XVII yüzilliyin 70-ci illərində Dərbənd və Şamaxı şəhərlərində evləri olan Hacı Bayraməli çox varlı yerli tacirlərdən idi. Yan Streys 1667-ci ildə onun ticarət karvanı ilə Dərbənddən hərəkət edərək məşhur ticarət şəhəri olan Şamaxıya gəldiklərini qeyd etmişdir [2, 243].

Bu məlumatlar Şamaxı şəhəri ilə Niyazabad, Şabran, Dərbənd arasında qızğın ticarət əlaqəsinin olması haqqında da təsəvvür yaradır. Şamaxı şəhərinin cənub hissəsində böyük bazarın olması və bu bazarda üstüörtülü, yaraşıqlı dükan cərgələrində xəz, ipək, çit parçalar, qızıl, gümüş saplarla toxunmuş parçalar, qılınc və digər sənətkarlıq məhsullarının satılması haqqında Hollandiya səyyahının verdiyi məlumatlar ölkənin daxili ticarət həyatında bu şəhərin böyük rolu olduğunu göstərir. Yan Streys həmçinin Şamaxıdan Hambruna yola düşən 1000 baş at, dəvə, başqa yük heyvanı və 2000 nəfər şəxsdən ibarət ticarət karvanı haqqında məlumat verərək yazırdı ki, yerli tacir Hacı Bayram İsfahana 20 at yükü şabalıd da aparırdı. Polşa elçisi Boqdan tərəfindən Hacı Bayrama 150 abbası ödənilməsi nəticəsində köləlikdən azad

olan Yan Streys başqa bir karvanın tərkibində Şamaxı – Fakirli (kənd) – Həsidi (kənd) – Cavad – Muğan çölü – Canlı (kənd) – Cəbədar (kənd) – Ərdəbil – Sultaniyyə – Qəzvin – Savə – Qum – İsfahan – Şiraz – Lar karvan yolu ilə hərəkət edərək Hambruna gəldiklərini, Şirazla Lar arasındakı yolda Hambrundan Şamaxıya gedən ticarət karvanı ilə qarşılaşdığını və çoxlu adamın müşayət etdiyi dəvələrin, qatır və atların cürbəcür hind malları ilə yükləndiyini göstərmişdir [2, 245, 281-337]. Səyyah və elçilərin verdikləri bu məlumatlar XVII yüzillikdə əmtəə-pul münasibətlərinin, daxili ticarətin təkamülünün ümumi mənzərəsini üzə çıxarmaqla yanaşı Dərbənddən Hambruna qədər uzanan karvan yolu boyunca yerləşən şəhərlərin və onlarla bağlı olan digər yaşayış məskənlərinin qarşılıqlı iqtisadi əlaqələrini, daxili bazarların inkişaf səviyyəsini müəyyən etməyə imkan verir.

XIV-XV yüzillikdə Səfəvi dini ordeni və feodal mülkünün mərkəzi olmuş, XVI—XVII əsrlərdə xüsusi imtiyazlı statusu ilə seçilən Ərdəbil şəhəri əsas iqtisadi mərkəzlərdən biri kimi ölkədaxili ticarət əlaqələrində böyük rol oynayırdı. Alman elçisi Adam Oleari Ərdəbilin ölkənin çox qədim və məşhur şəhərlərindən biri olduğunu qeyd etmişdir. Səyyaha görə, şəhərin şan-şöhrəti əski şahların, xüsusilə onların dini məzhəbinin (Səfəviyyə sufi dərviş təriqəti – **N.S.**) əsasını qoyan Şeyx Səfinin burada yaşaması, onun müqəddəs məzarının da burada yerləşməsi ilə, yerli tacirlərin əcnəbilərlə çox böyük ticarət əlaqələri aparması ilə bağlı idi [5, 58]. Səfəvi ölkəsinin quzeyi ilə güneyini iqtisadi cəhətdən bağlayan Dərbənd-Hörmüz və Gilan-Təbriz karvan yollarının da Ərdəbildən keçməsi şəhəri ölkədə ən mühüm daxili bazarlarından birinə çevirmişdi. O.Əfəndiyevin fikrincə, bu şəhər artıq XVI yüzillikdə ölkənin daxili ticarət həyatında xüsusi rola malik idi [1, 210].

1555-ci ildə Qəzvinin Azərbaycan Səfəvi dövlətinin paytaxtına çevrilməsi, ölkənin güneyindən Ərdəbilə gələn karvan yolunun buradan keçməsi XVI yüzilliyin II yarısından həmin şəhərin iqtisadi inkişafına müsbət təsir göstərmiş və ölkənin daxili ticarətində əhəmiyyətli yer tutmasına gətirib çıxarmışdı. Bundan başqa, Qəzvin şəhəri Dərbənd-Hörmüz karvan yolu üzərində yerləşirdi. İngilis taciri Artur Edvards 1566-cı ildə yazırdı ki, Qəzvində ən mühüm və ən yaxşı tacirlər yaşayırlar. Bu şəhərin ərafında ölkənin ürəyi olan Təbriz, Ərdəbil, Kaşan kimi şəhərlər yerləşir. Buranın əhalisi daha sivildir, (mədənidir), tacirləri isə ləyaqətli və hörmətlidir. Bu məsələ barəsində qeyd olunan ölkədə olmuş bir çox tacirlərdən, o cümlədən ruslardan, başqalarından sorğu-sual etdim və onlar da mənim fikrimin doğruluğunu qəbul edərək, həm də bildirdilər ki, bu şəhərə hər yerdən mal gətirilir. Artur Edvardsın şəhər əhalisi barədə verdiyi məlumatlar XVII yüzilliyin əvvəllərində Qəzvində olmuş rus taciri F.Kotovun qeydləri ilə səsləşir. O da yazırdı ki, meydanında olduqca çoxlu ərzaq, tərəvəz satılan, bazarları və karvansaralarında çeşid-çeşid mal olan şəhərdə oğurluq yoxdur [3, 127-128; 4, 76].

XVI əsrin əvvəllərində 300 min əhalisi olan Təbriz şəhəri də ölkənin ən mühüm sənətkarlıq və ticarət mərkəzlərindən biri idi. Şübhəsiz ki, XVI əsrin

30-50-ci illərində baş vermiş Osmanlı-Səfəvi savaşları Təbriz şəhəri və şəhərətrafı bölgələrin iqtisadiyyatına böyük ziyan vurmuşdu. Ingilis taciri Antoni Cenkinson bu savaşların daxili ticarətə mənfi təsir göstərməsi ilə bağlı yazırdı ki, Təbriz keçmişdən ölkənin ən böyük şəhəri idi. Ancaq indi ticarət və tacirlər üçün əvvəlki əhəmiyyətini itirmişdir [3, 113].

Qeyd etməyi lazım bilirik ki, Təbriz şəhərinin ölkənin daxili ticarət əlaqələrində rolu qarşılıqlı iqtisadi tələbatdan birbaşa asılı olduğundan, onun tam çökməsi mümkün deyildi. Anonim Venesiya taciri və digər italyan səyyahlarının məlumatlarına görə, bu dövrdə Şamaxı, Gəncə, Şəki şəhərlərində ipək, Mahmudabadda balıq kürüsü, Gilanda sitrus meyvələri və düyü, Dizmarda nar, Ordubadda qırmızı boyaq, Bakıda neft, Xoyda qırmızı boyaq və meyvə qurusu, Meşkində kişmiş istehsalı üstünlük təşkil edirdi. Şəhərlər həmin məhsulları qarşılıqlı şəkildə bir-birlərinin bazarlarına çıxarırdılar. Adı çəkilən şəhərlərin məhsulları daha çox Təbriz bazarına gətirilirdi. Təbriz şəhərinin iqtisadi həyatı haqqında təzadlı məlumatlar verən Vinçento de Alessandri qeydlərinin birində Təbriz bazarının kasadlığını Osmanlı-Səfəvi savaşları ilə əlaqələndirsə də, gündəliyinin başqa bir bölməsində şəhərdə qızğın ticarət getdiyini deməklə əslində öz əvvəlki fikrini bir qədər dəyişdirmişdir. Alessandri yazırdı: «Bu, ticarət şəhəridir, çünki bura krallığın bütün yerlərindən karvanlarla mallar gətirilir» [6, 34-336, 444-446].

Təbriz ölkənin əsas sənətkarlıq mərkəzlərindən biri idi. Təbrizdə toxunan atlas, qumaş, darai, məxmər parçalar daxili bazarda satılmaqla yanaşı başqa ölklərə də ixrac olunurdu. Təbrizdəki topdansatış ticarət mərkəzlərindən Cəfər paşa, Papaqtikənlər, Bəndər, Bəyim, Baba Həqqi adı ilə məşhur olan ticarət saraylarında yerlilərlə yanaşı əcnəbi tacirlər də alver edirdilər. E.Çələbi yazırdı: «Bütün əmtəə və mallar bu bazarlarda satılırdı». Təbrizdə Çarşı (bazar), Bədestan (Qeysəriyyə-üstü tacbəndlərlə örtülü bazar) və 7000 dükan vardı. Təbrizin dükanları kərpicdən tikilmişdi və səyyaha görə, bu dükanlarda tacirlər hər cür mal satırdılar. Evliya Çələbinin qeydlərindən aydın olur ki, ölkənin iqtisadi həyatında xüsusi rola malik olan Ərdəbil və Təbriz şəhərləri mühüm ticarət mərkəzləri idilər [7, 24, 42-43].

Osmanlı-Səfəvi savaşlarından sonra, XVII yüzilliyin 30-40-cı illərində şah Səfinin verdiyi qanunlar və həyata keçirdiyi iqtisadi tədbirlər ölkənin təsərrüfat həyatına müsbət təsir göstərmiş, əmtəə-pul münasibətləri güclənmiş və ölkə daxilindəki kiçik yaşayış məntəqəlri ilə şəhərlər arasında iqtisadi əlaqələr bərpa olunmuşdu. Təbrizin ticarət həyatı haqqında məlumat verən Şarden dükanların yaşayış binalarından ayrı olduğunu, onların əksəriyyətinin enli və uzun küçələrdə yerləşdiyini bildirir. O yazırdı ki, belə küçələr bazar adlanır, əsas bazarlar isə şəhərin mərkəzində yerləşir. E.Çələbinin Bədestan adı ilə qeyd etdiyi üstüörtülü Təbriz bazarı Şardenin də diqqətini cəlb etmişdi. Tacir yazırdı: «Şəhərdə bahalı mallar, cəvahirat satılan bazar Qeysəriyyə adlanır. Bu da «şah bazarı» deməkdir. Bu bazar çox geniş olub, səkkizbucaqlı-

dır və Asiyanın ən gözəl bazarıdır... Böyüklüyü, nəhəng günbəzləri, malları, alıcı-satıcısının çoxluğu bazarın əzəmətini göstərir» [8, 403-404].

Dərbənd-Hörmüz ticarət yolunun üzərində yerləşən İsfahan şəhəri Şah Abbasa qədər ölkənin iqtisadi həyatında Təbriz və bir çox başqa şəhərlərin oynadığı qədər böyük iqtisadi rola malik deyildi. Ancaq şah Abbas 1598-ci ildə ölkənin paytaxtını Qəzvindən İsfahana köçürdükdən sonra iqtisadi inkişafla əlaqədar burada əhalinin sayı 100 min nəfərdən artaraq 500 min nəfərə çatmışdı və şəhər ölkə miqyasında mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdi. Şəhərin mərkəzində uzunluğu 500 metr, eni 160 metr olan «Şah Meydanı» inşa edilmişdi [9, 72]. İsfahan şəhərinin iqtisadi inkişafında və ümumdövlət miqyaslı ticarət mərkəzinə çevrilməsində I Şah Abbas və onun xələflərinin xüsusi qayğısı ilə yanaşı onların həyata keçirdikləri iqtisadi tədbirlərin də rolu az olmamışdı. Belə ki, yeni bazarlar, karvansaralar və yaşayış binalarının tikilməsi ilə iqtisadiyyatı daha da canlanan şəhərin əhalisinin sayı xeyli artmışdı. Artıq 12 darvazası və çoxlu karvansarası olan bu şəhərin ərazisi 40, yaxud 100 km (şəhərin çevrəsinin uzuluğu nəzərdə tutulur – N.S.) əhalisinin sayı isə təqribən 600 minlə 1 milyon yüz min nəfər arasında idi. Şəhər ətrafında 1500 kənd yerləşirdi [10, 161-162, 172].

Adam Oleari də İsfahanın XVII yüzillikdə ölkənin mühüm ticarət mərkəzi olduğunu göstərmişdir. İsfahandakı şəhər meydanı və onun aşağı tərəfindəki Qeysəriyyə haqqında ətraflı məlumat verən səyyah ən bahalı malların bu bazarda satıldığını və onun üstüörtülü dalanlara bölündüyünü, burada hər cür mal olduğunu, hər bir malın müvafiq dükanlarda satıldığını qeyd etmişdir [5, 727].

1671-ci ildə kölə həyatını başa vurub İsfahana gələn Yan Streys bu şəhərdə Hollandiyanın Ost-Hind şirkətinin Fredrik Bent, baş tacir Kassenbort və kiçik tacir Heybert Baldedən ibarət nümayəndəliyinin olduğunu və xüsusi binada yerləşdiyini yazmışdır. Streys göstərirdi ki, Holland evi, yaxud karvansarası şah sarayının yaxınlığında görkəmli bir yerdə olub, yaşayış üçün çox gözəl və rahatdır. Yan Streys Lar şəhərində də holland Ost-Hind şirkətinin iqamətgahının — karvansarasının olduğunu yazmışdır [2, 307, 308, 334]. XVI-XVII əsrlərdə ölkənin mühüm daxili ticarət mərkəzlərindən biri də Hörmüz-Təbriz yolu üzərindəki Kaşan şəhəri idi. 1617-ci ildə İspaniyalı elçi Don Qarsiya de Silva bu şəhəri Farsla Azərbaycan arasında bağlı-baxçalı və zəngin bir şəhər kimi təsvir edərək yazırdı ki, onun ticarət mərkəzi olan meydanının ətrafında olduqca geniş və rahat karvansara yerləşir. Elçi şəhər kənarında əcnəbilərin yaşadığı və hər cür şəraiti olan karvansaralar haqqında da məlumat vermişdir [11, 246, 247] Yan Streys isə yazırdı ki, indi Kaşan İranın (Səfəvi – **N.S.**) ən məşhur və əhalisi çox olan ticarət şəhəridir. Burada əla və yüksək səviyyəli, çoxlu qübbəsi, girişləri olan bazar və meydan vardır. İrandakı ipək və digər parçaların çox hissəsi burada hasil edilir və başqa ölkələrə satılır. Şəhərdə məxmər və atlas parçaların çoxu Avropa üsulu ilə toxunur. Şah Venesiyadan yaxşı ustalar gətirmək üçün ora tez-tez elçilər

göndərmiş, ancaq onlar çox vaxt əliboş geri dönmüşdülər. Yan Streys sözünə davam edərək yazırdı ki, Kaşanda olduqca çox, ölkənin başqa şəhərlərindəkindən yaraşıqlı və rahat karvansaralar vardı [2, 304, 305].

Səfəvi imperiyasının quzeyində ticarət qapısı olan Dərbənddən ölkənin güneyinə doğru uzanıb gedərək bütün iqtisadi bölgələri bir-biri ilə əlaqələndirən karvan yolunun İran körfəzinə açılan qapısı isə Hambrun liman şəhəri idi. Yan Streysə görə Hambrun şəhərini İranlılar (Səfəvilər – **N.S.**) Dərbənd kimi Bəndər (yəni liman – **N.S.**) və ölkənin açarı adlandırırlar. Əvvəllər balıqçı qəsəbəsi olan Hambrun, indi böyük bir ticarət şəhəridir. Burada İranlılar, hindlilər, mavrlar (Afrikanın şimal-qərbində yaşayan ərəblər – **N.S.**), hollandlar, ingilislər və fransızlar böyük ticarət işləri ilə məşğul olurlar. Şəhərin ticarət əlaqələri barədə Yan Streys belə yazırdı ki, Hambruna İranlılar və ermənilər İsfahan yolu ilə, ərəblər isə Bağdaddan bir neçə min dəvə, eşşək, at və başqa yük heyvanlarından ibarət qoşuna bənzər karvanla gəlirlər [2, 337-339]. Hambrunun ölkə miqyasındakı iqtisadi əhəmiyyəti onun İran körfəzi sahilindəki əlverişli təbii-coğrafi mövqeyi ilə bağlı idi. İran körfəzi ta qədimdən bəri mirvari hasilatı və dünya bazarına çıxarması ilə məşhur idi. Körfəzin bazarlarına yerli balıqçıların emal etdikləri çox miqdarda quru balıq çıxarılırdı. İran körfəzi sahillərinin daxili bazarlarda satılan və ixrac olunan əsas məhsulu isə xurma idi. Dünyada ən yaxşı xurma növləri körfəzin sahilboyu bölgələrində yetişdirilirdi. Çox qədim zamanlardan İran körfəzi bazarlarına ölkə daxilindən taxıl və sitrus meyvələri gətirilirdi. Körfəzdəki bazarların olduqca böyük mal dövriyyəsi vardı. Belə ki, körfəzin Bəsrə, Kiş, Hörmüz və Maskatdakı bazarlarında daxili məhsullarla yanaşı Avropa, Afrika və Uzaq Şərqdən gətirilən mallar satılırdı. Avropadan bu bazarlara şüşə, qurğuşun, mis, dəmir və ondan hazırlanan məmulatlar, yun, iplik parçalar; Afrika, Hindistan və Çindən ipək, ətriyyat, ədviyyat, fil sümüyü, qara-ağac, qoz, pambıq, qiymətli daş-qaş gətirilrdi [11, 30-31]. XVI-XVII əsrlərdə Səfəvi dövlətinin iqtisadi inkişafının başlıca səciyyəvi xüsusiyyəti şəhərlərin böyüməsi, ticarət və sənətkarlığın inkişafı ilə müəyyən olunur. Bu dövrdə Mərkəzi və Qərbi İranın İsfahan, Şiraz, Kaşan, Yəzd, Girman, Azərbaycanın Təbriz, Ərdəbil, Qəzvin, Həmədan, Gəncə, Şamaxı, Bakı, Ərəş şəhərləri getdikcə böyümüş və ölkənin iqtisadi həyatında onların nüfuzu artmışdı. Həmin şəhərlər ölkədaxili ticarətin və xarici iqtisadi əlaqələrin mərkəzlərinə çevrilmişdi.

## ƏDƏBİYYAT


1. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 344 s.
2. Стрейс Я.Я. Три путешествия. Пер. с немец. на русск. Э.Бородиной. М.: ОГИЗ-СОЦЭКГЗ, 1935, 415 с.
3. Путешественники об Азербайджане. Т.1, Составил З.И.Ямпольский. Баку: АН Азерб. ССР, 1961, 497 с.
4. Хожение купца Федота Котова в Персию. М., 1958, 110 с.; Джидди Г.А. СредНевековый город Шемаха (IX–XVIII века). Баку: Восточная литература, 1981, 106 с.
5. Адам Олеари. Подробное описание путешествия Гольштинского посольства в

Московию и Персию в 1633, 1636 и 1639 гг. Пер. с немец. П.Барсова. М.: Университетская типография, 1870, 1033 с.
6. Səfərnameha-ye Veneziyan dər İran. Tərcome-ye Mənuçöhr Əmiri, Tehran, Enteşarate Xarəzmi, 1349, 450 s.
7. Evliya Çələbi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi prof. S.Onullahi. Bakı: Azərnəşr, 1997, 87 s.
8. Səfərname-ye Şarden.Tərcome-ye Məhəmməd Abbasi, c.II, Tehran, Enteşarate Əmire Kəbir, 1335, 301 s.
9. Иванов М.С. Очерки истории Ирана. М.: Государственное издательство политической литературы, 1952, 467 с.
10. Rocer Seyvori. İran əsre Səfəvi. Tərcome-ye Kambiz Əzizi. Tehran, Nəşre mərkəz, 1374, 390 s.
11. Səfərname-ye don Qarsiya de Silva Fiqeroa. Tərcome-ye Qulamrza Səmia. Tehran, Çapxana-ye kətbiyye, 1363, 530 s.

## РОЛЬ ГОРОДОВ В ЭКОНОМИЧЕСКОЙ ЖИЗНИ СЕФЕВИДОВ ПО МАТЕРИАЛАМ ПУТЕШЕСТВЕННИКОВ

**Н.М.СУЛЕЙМАНОВ**

**РЕЗЮМЕ**

Развитие внутриэкономических отношений привело возрождению некоторых городов и превращение их в экономический центр. Весь комплекс этих вопросов анализирован на основе местных источников и по сведениям путешественников посетивших Азербайджан в XVI-XVII веках.

**Ключевые слова:** Тебриз, Джульфа, Дербенд, Хазар, Сефеви, Османлы

## THE ROLE OF THE CITIES IN THE ECONOMIC LIFE OF SAFAVYDS ON THE BASIS OF WORKS OF TRAVELERS

**N.M.SULEYMANOV**

**SUMMARY**

The development of domestic economic relations resulted in the rennaisance of several cities and transformed them into economic centers. The complex of these issues are analyzed on the basis of local sources and the works of travelers visiting Azerbaijan in XVI – XVII centuries.

**Key words:** Tabriz, Julfa, Derbend, Khazar, Safavid, Ottoman